# Söhrab Tahiri



Azərbaycanın ədəbi ictimaiyyətinə ağır itki üz vermişdir. Xalq şairi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Söhrab Əbülfəz oğlu Tahiri 2016-cı il mayın 4-də ömrünün 90-cı ilində vəfat etmişdir.

Söhrab Tahiri 1926-cı il may ayının 27-də İranın Astara şəhərində anadan olmuşdur. Sonralar o, ailəsi ilə birlikdə Kirmanşah şəhərinə köçərək orada orta məktəbdə oxumuş və "İran-ingilis neft şirkəti"ndə çalışmışdır. Təhsilini davam etdirmək məqsədilə Bakıya gələn Söhrab Tahiri 1946-1950-ci illərdə Bakı Hərbi Məktəbinin, 1952-1957-ci illərdə isə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin tələbəsi olmuşdur.

1959-1961-ci illərdə Moskvada müdavimi olduğu Qorki adına Ali Ədəbiyyat kursunu bitirdikdən sonra Bakıya qayıdan Söhrab Tahiri "Azərbaycan" jurnalı redaksiyasında məsul katib, "Azərbaycan" qəzetinin və "Azərbaycan" jurnalının redaksiyalarında bədii şöbələrdə müdir, "Səhər" ədəbi-tarixi jurnalında baş redaktor müavini, 1984-cü ildən "Azərbaycan" jurnalının redaktoru, 1986-1991-ci illərdə isə Azərbaycan Yazıçılar Birliyi Şeir şurasının sədri işləmişdir.

Söhrab Tahiri 1993-2003-cü illərdə Azərbaycan Elmlər Akademiyası Milli Münasibətlər İnstitutunun, 2003-cü ildən isə Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun əməkdaşı olmuşdur.

Müasir Azərbaycan ədəbiyyatının tanınmış simalarından biri Söhrab Tahiri dolğun və mənalı yaradıcılıq yolu keçmişdir. Ədəbiyyat aləminə 1949-cu ildə "Azərbaycan" qəzetində dərc edilmiş şeiri ilə gələn şair həyatının altmış ildən artıq bir dövrü ərzində ədəbi söz xəzinəmizə dəyərli töhfələr vermişdir. Söhrab Tahiri poeziyası ənənəyə yaradıcı münasibətilə səciyyələnmiş və özünəməxsus obrazlılıq tərzi, üslub keyfiyyətləri, poetik axıcılığı sayəsində daim oxucularının rəğbətini qazanmışdır. Ana dilinə hədsiz məhəbbətlə yanaşaraq onun misilsiz bədii imkanlarından məharətlə faydalanan sənətkarın yaradıcılığı milli-mənəvi dəyərlərin təbliğinə, vətənpərvərlik hisslərinin aşılanmasına xidmət göstərir. Poeziyamızın azadlıq ideyaları ilə zənginləşməsində və gənc nəslin tarixi-mədəni irsə bağlılıq ruhunda tərbiyəsində onun yaradıcılığının böyük əhəmiyyəti vardır.

Söhrab Tahirinin 30-dan çox kitabda toplanmış şeir və poemalarının, hekayə, povest və romanlarının başlıca leytmotivini Azərbaycana dərin bağlılıq, xalqın azadlıq uğrunda mübarizəsinin və zəngin mənəvi dünyasının tərənnümü təşkil edirdi. Bütün yaradıcılığı boyu azərbaycançılıq məfkurəsinə sadiq qalan şair Azərbaycan xalqının əsrlər boyu yaşadığı mürəkkəb tarixi keçmişin ən keşməkeşli mərhələləri ilə bağlı fikir və düşüncələrini əsərlərində məharətlə əks etdirmişdir. Onun parlaq bədii dillə qələmə aldığı bu əsərlər xalq ruhuna dərindən bağlılığı və geniş epik lövhələrin zənginliyi ilə seçilir. Söhrab Tahiri şeir və nəsrlə yanaşı, ədəbi-tənqidi və publisistik məqalələrin müəllifi kimi də tanınırdı.

Söhrab Tahirinin uzunmüddətli ədəbi fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə bir sıra fəxri ad və medallarla təltif edilmiş, Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan "Şöhrət" ordeninə layiq görülmüşdür.

Xalq şairi Söhrab Tahirinin əziz xatirəsi onun tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV, Artur RASİZADƏ, Oqtay ƏSƏDOV, Ramiz MEHDİYEV, Elçin ƏFƏNDİYEV, Hacıbala ABUTALIBOV, Fatma ABDULLAZADƏ, Əbülfəs QARAYEV, Akif ƏLİZADƏ, Anar RZAYEV, Fikrət QOCA, Nəriman HƏSƏNZADƏ, Mövlud SÜLEYMANLI, Çingiz ABDULLAYEV***

* * *

*Mərhumun cənazəsi vidalaşmaq üçün 2016-cı il mayın 5-də saat 12.00-dan 14.00-dək Təzəpir məscidində qoyulacaqdır.*